AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

AZƏRBAYCAN DİLİNDƏ COĞRAFİYA TERMİNLƏRİNİN STRUKTUR VƏ LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

İxtisas: 5706.01- "Azərbaycan dili"

Elm sahəsi: Filologiya elmləri

İddiaçı: **Sevda Xaqani qızı Rüstəmova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2026

Dissertasiya işi Bakı Slavyan Universitetinin Azərbaycan dili kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
İkram Ziyad oğlu Qasımov

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
Həcər Emin qızı Hüseynova

filologiya elmləri üzrə fəlsəfə doktoru
Ramil Əkbər oğlu Bayramov

filologiya elmləri üzrə fəlsəfə doktoru
Aytən Arzuman qızı Hüseynova-Qəhrəmanlı

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.06 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor
Nadir Balaoğlan oğlu Məmmədli

Dissertasiya şurasının
elmi katibi: filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
Sevinc Yusif qızı Məmmədova

Elmi seminarın sədri:
filologiya elmləri doktoru, professor
İsmayıl Oruc oğlu Məmmədli

GİRİŞ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Azərbaycan dilinin terminoloji sistemi uzunmüddətli tarixi inkişafın məhsulu olmaqla müxtəlif ictimai-siyasi, elmi və mədəni amillərin təsiri altında formalaşmış və zənginləşmişdir. Terminologiyanın müstəqil elmi istiqamət kimi təşəkkülü, onun nəzəri-metodoloji əsaslarının müəyyənləşdirilməsi və sistemli şəkildə öyrənilməsi isə əsasən XX əsrdə reallaşmışdır. Coğrafiya terminologiyası da bu prosesdən kənarda qalmamış, onun tərkibində dilin daxili imkanları əsasında yaranmış terminlərlə yanaşı, digər dillərdən alınmış terminlər də geniş şəkildə işlənmişdir. Hər bir elm sahəsinin özünəməxsus obyekt və predmeti olduğu kimi, terminoloji sistemi də fərqlənir. Terminlərin elmləri bir-birindən fərqləndirən əsas amillərdən biri olduğunu desək, daha doğru olar.

Elmlər sistemində coğrafiyanın özünəməxsus yeri və rolu var. Coğrafiya bizi əhatə edən ətraf aləmlə bağlı təsəvvürlərimizi genişləndirən, təbiət və ictimai elmlər sistemində xüsusi çəkisi olan bir elmdir. Coğrafiya Azərbaycanda XX əsrin əvvəllərindən etibarən müstəqil elm sahəsi kimi formalaşmağa başlamışdır. Sonrakı dövrlərdə elmi-nəzəri bazasının genişlənməsi və tədqiqat istiqamətlərinin şaxələnməsi nəticəsində coğrafiya özünəməxsus metodoloji prinsiplərə və tədqiqat obyektinə malik elmlər sırasında mühüm yer tutmuşdur. Müasir mərhələdə isə coğrafiya müxtəlif istiqamətləri əhatə edən, dinamik inkişaf edən elm sahələrindən biri kimi səciyyələnir. Bu baxımdan coğrafiya terminologiyasının linqvistik müstəvidə araşdırılması həm terminologiya nəzəriyyəsi, həm də sahə terminologiyalarının öyrənilməsi baxımından aktuallıq kəsb edir. Coğrafiya terminlərindən yalnız coğrafiyaya dair elmi mətnlərdə deyil, gündəlik ictimai həyatda da tez-tez istifadə olunur. Coğrafiya terminləri mənşəyi və formalaşma xüsusiyyətləri baxımından bir sıra digər sahə terminlərindən fərqlənir. Belə ki, coğrafiya elmi müstəqil elm sahəsi kimi təşəkkül tapmamışdan xeyli əvvəl insanların təbiət və ətraf mühit haqqında müşahidələri nəticəsində yaranmış “göl”, “çay”, “dərə”, “təpə”, “qar”, “yağış”, “dolu” və s. kimi leksik vahidlər ümumxalq dilində geniş şəkildə

işlənmişdir. Sonrakı dövrlərdə bu sözlər elmi anlayışları ifadə edərək terminoloji status qazanmış və coğrafiya terminologiyasının əsas qatlarından birini təşkil etmişdir. Məhz bu baxımdan da coğrafiya terminlərinin sistemli şəkildə öyrənilməsi mövzunun aktuallığını səciyyələndirir.

Son illərdə dilimizə dövlət qayğısı xeyli artmışdır. Dilçiliyin bütün sahələri kimi terminologiya sahəsi də bu qayğıdan yararlanmışdır. Müxtəlif elm sahələrinin terminləri dilçilik nöqteyi-nəzərdən təhlilə cəlb edilmiş və ciddi tədqiqatlar aparılmışdır. Terminologiyanın nəzəri məsələlərinə və sahə terminologiyasına həsr olunmuş elmi tədqiqatlar işıq üzü görmüşdür. Bütün bunlar isə elm sahələrinin mənimsənilməsinə, inkişafına təkan vermişdir. Dilimizin terminoloji leksikasında coğrafiya terminlərinin yerinin və mövqeyinin müəyyənləşdirilməsi, coğrafiya terminlərinin leksik-semantik, struktur xüsusiyyətlərinin öyrənilməsi mövzunun aktuallığını şərtləndirən əsas amillərdəndir. XX əsrdən etibarən alınma terminlərin dilə daxilolma prosesində bir intensivləşmə müşayiət olunmaqdadır. Bu səbəbdən dilin leksik tərkibinə onun daxili imkanları hesabına yaranan vahidlərlə yanaşı, digər dillərdən alınan söz və terminlər də daxil olmaqdadır. XXI əsrdə dillərin qarşılıqlı əlaqələrinin genişlənməsi, qloballaşma prosesi sözalma prosesini sürətləndirmişdir. XXI əsrdən etibarən əsasən Avropa dillərindən birbaşa keçən coğrafiya terminlərinin sayı artmışdır.

Maraqlıdır ki, digər təbiət və texniki elmlərlə müqayisədə coğrafiya elminə müstəqillik illərində Avropa mənşəli terminlərin axını o qədər də güclü olmamışdır. Müstəqillik illərində ən çox xalq danışıq dilindəki coğrafiya leksik fondun ədəbi dilin terminoloji sisteminə keçməsindən bəhs etmək mümkündür. Dilə daxil olan terminlərə diqqətlə yanaşaraq, bu cür terminləri müəyyən standartlara salmaq zəruridir. Azərbaycan dilindəki coğrafiya terminlərinin böyük bir qismi dialektlərdən və xalq danışıq dilindən keçmiş terminlərdir. Linqvistik proseslərin tənzimlənməsi müasir terminologiyanın əsas vəzifələrindəndir. Müasir terminoloji araşdırmalarda dialekt leksikasının və ümumişlək sözlərin coğrafiya terminologiyasının formalaşması və inkişafındakı yerinin müəyyənləşdirilməsi aktual tədqiqat istiqamətlərindən biri kimi

qiymətləndirilir. Müasir Azərbaycan dilində işlənən milli və alınma mənşəli coğrafiya terminlərinin semantik və struktur xüsusiyyətlərinin tədqiqi də mövzunun aktuallığını şərtləndirən mühüm amillərdən biri hesab edilə bilər.

Azərbaycan dilçiliyində coğrafiya terminlərinin linqvistik xüsusiyyətləri bu günədək ayrıca və hərtərəfli şəkildə tədqiq edilməmişdir. Hər hansı bir elm sahəsinin terminlərini leksik-semantik səviyyədə tədqiq etmək üçün ilk olaraq lüğət tərtib olunmalıdır. Coğrafiya terminləri lüğətləri əsasən coğrafiyaçı alimlər tərəfindən tədqiq olunmuşdur. Bu gün coğrafiya termini kimi qiymətləndirilən bir sıra leksik vahidlər qədim dövrlərdən etibarən Azərbaycan dilində işlənməsinə baxmayaraq, coğrafiya terminlərinin elmi əsaslarla öyrənilməsi və sistemli şəkildə tədqiqi yalnız XX əsrin əvvəllərindən etibarən başlanmışdır. *"1908-ci ildə müəllim Akif Səffət tərəfindən coğrafiya və geologiya materialları əsasında yazılmış "Tarix cəhan, yaxud dünya nə olmuş və nə olacaq "adlı kitabda Azərbaycan coğrafiya ədəbiyyatında ilk dəfə olaraq: "siluri, devon, karbon, perm, trias, yura, təbaşır, eosen, miosen, pliosen" kimi geoloji dövrlərə aid terminlərə rast gəlirik"* [1].

XX əsrin əvvəllərində Qafur Rəşad Mirzəzadənin "Qafqaz coğrafiyası" [1919], "Ümumi coğrafiya" [1910], "Coğrafiya haqqında hekayələr" [1917]; "Təfsirli xalq lüğəti" [1921] və s. kitabları kütləvi məlumat xarakteri daşıyan elmi əsərlər olmuşdur. *"Onun "Ümumi coğrafiya" adlı iki hissədən ibarət kitabından Azərbaycan məktəblərində 20 il istifadə edilmişdir. Həmin kitabda Azərbaycan dilinə məxsus dərə, çöl, bataqlıq, dəniz, quraqlıq, duman kimi xalq içərisində işlənən, hamının başa düşdüyü sözlərdən termin kimi istifadə edilmişdir. Bununla yanaşı ərəb dilindən alınmış, lakin Azərbaycan dilində geniş istifadə olunan sözlərin də coğrafiya terminlərinin yaranmasında mühüm rolu olmuşdur: üfüq, zirvə, şərq, cənub, sahil, şimal, şəlalə və s. Müəllif bəzi çətin terminləri*

[1] Yüzbaşov, R.M. Azərbaycan coğrafiya terminləri / R.M.Yüzbaşov. – Bakı: Azərbaycan SSRİ Elmlər Akademiyasının nəşriyyatı, – 1966.– s.106

mötərizədə izahlı şəkildə verməklə kitabın dilini sadələşdirməyə çalışmışdır" [2].

Bu dərslikdə bu gün Azərbaycan dilinin coğrafiya sistemində rast gəlmədiyimiz *nəhr, qiblənüma, kürreyi-mücəssimə, məhvəri-ərz, xüsuf, küsuf, tül dairəsi, ərz dairəsi* və s. terminlərdən istifadə edilmişdir. Bu gün bu terminlərin qarşılığı kimi dilimizdə-*çay, kompas, qlobus, yer oxu, ay tutulması, gün tutulması, uzunluq dairəsi, enlik dairəsi* kimi coğrafiya terminlərdən istifadə olunur. Qafur Mirzəzadənin kitabında latın-yunan mənşəli beynəlmiləl coğrafiya terminlərinə də yer verilmişdir. Məsələn*, vulkan, krater, basis, lava, atoll, pasat, mussonlar, fyon, briz, sirokko, qrmba* və s. Bu terminlər bu gün Azərbaycan dilində işlənməkdədir.

Azərbaycanın ilk təbiətşünas alimi olan Həsən bəy Məlikzadə [Zərdabi] 1912-ci ildə "Torpaq, su, hava" adlı elmi-kütləvi əsərini nəşr etdirir. Bu əsərdə ilk elmi coğrafiya terminlərinə rast gəlinir: *ərimiş şeylər, ərimiş daşlar, magma, boşluq, fəza, torpaq qatları, yanar dağ, vulkan kimi sadə, anlaşıqlı terminlərlə yanaşı*, *kürrey-ərz, dəryan-mühit, mühiti-okeanus, qitə, cəzirə* kimi qəliz terminlərdən də istifadə etmişdir.

1922-ci ildə Azərbaycan İctimai Şura Cümhuriyyəti Xalq Komissarları Şurası nəzdində "İstilah komissiyası" yaradıldı. Azərbaycan dilində coğrafiya terminlərinin həqiqi mənada sistemləşdirilməsi prosesi 1921-1922-ci illərdən sonra başlayır. Bu dövrdə coğrafiya terminologiyasında ərəb və fars mənşəli terminlər üstünlük təşkil edirdi. Coğrafiya terminlərinin təxminən 90% -dən çoxu ərəb və fars mənşəli idi. Məhz həmin dövrdən etibarən coğrafiya terminologiyasının milliləşdirilməsi və türkləşdirilməsi istiqamətində məqsədyönlü fəaliyyətə başlanılmışdır. Bu sahədə atılan ilk addımlardan biri coğrafiya terminlərini əhatə edən terminoloji lüğətlərin hazırlanması və nəşri olmuşdur.1921-ci ildə layihə şəklində hazırlanan "Coğrafiya terminləri" lüğəti ilk coğrafiya terminləri lüğətlərindən biri olmuşdur. R.Yüzbaşovun fikrincə, bu lüğətin tərtibçiləri ərəb və fars sözlərindən uzaqlaşmağa cəhd

[2] Sadıqova, S.A. Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı / S.A.Sadıqova. – Bakı: Elm, – 2005, –s.190

göstərsələr də, bu dəfə daha başqa bir yanlışa yol vermişlər. Tərtibçilərin fikrincə, coğrafiya terminləri sırf milli mənşəli sözlərdən ibarət olmalı idi. Lüğətdə bu kimi terminlər yer almışdır: *yerbil-coğrafiya, subil-hidroqrafiya, daşbil-petroqrafiya, üçqulaq-delta, toplay-atmosfer, qaş-üfüq, əhali-yaşaq, törədiş-sənaye, titrənmə-zəlzələ, kənd-şəhər, köy-kənd.* Lakin dilə daxil olan hər bir termin o dildə vətəndaşlıq hüququ qazanmalıdır. Əgər o hüququ qazana bilmirsə, gec və ya tez dildən çıxır. 1926-cı il keçirilən Türkoloji Qurultayda purism tərəfdarları bu terminlərin tərəfdarı kimi çıxış etsələr də, onları dəstəkləyən olmadı. 1957-ci ildə Azərbaycan SSR EA Coğrafiya İnstitutu tərəfindən coğrafiya terminləri lüğəti çap olundu. Bu lüğətdə rusca coğrafiya terminlərinin azərbaycanca tərcüməsi verilmişdir. *"Terminologiyanın inkişafı 60-80-ci illərdə öz inkişaf xəttinə görə 50-60-cı illərdən fərqlənir. Belə ki, bu dövrdə lüğət tərkibinin daxili imkanlar hesabına inkişafı ilə başqa [alınma] dillər hesabına inkişafı arasında mütənasiblik yaradır*" [3]. 1960-cı ildə "Azərbaycan SSR-in izahlı coğrafiya adlar lüğəti" çap olundu. Burada coğrafiya terminləri deyil, yalnız coğrafi obyektlərin adları verilmişdir. Həmin adlar sırasında inzibati-ərazi bölgülərinin, şəhər və kəndlərin, yaşayış məntəqələrinin, dəmiryol stansiyalarının, dağların, düzənlərin, çayların və mineral bulaqların adları yer almışdır[4].

1966-cı ildə Azərbaycan coğrafiya terminləri üzərində R.Yüzbaşovun apardığı tədqiqatlar daha təqdirəlayiqdir. Alim coğrafiya terminlərə dair nəzəri məlumat verməklə bərabər əsas coğrafiya terminlərinin də izahını vermişdir. Əsərin dəyərini artıran hissələrdən biri də sonda elmə daxil edilməsi tövsiyə olunan terminlərin siyahısının verilməsi idi[5]. 2016-cı ildə Azərbaycan dilinin coğrafiya terminləri lüğəti çapdan çıxdı. Düzdür, lüğətin həcmi azdır və dilimizdəki bütün coğrafiya terminlərini əhatə etmir. Lakin

[3] Sadıqova, S.A. Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı / S.A.Sadıqova. – Bakı: Elm, – 2005. –s.264

[4] Azərbaycan SSRİ-nin izahlı coğrafi adlar lüğəti / tərt. ed. Gül Q.K. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, – 1960. –s.200

[5] Yüzbaşov, R.M. Azərbaycan coğrafiya terminləri / R.M.Yüzbaşov. – Bakı: Azərbaycan SSRİ Elmlər Akademiyasının nəşriyyatı, – 1966. – 287 s.

coğrafiya terminlərinin öyrənilməsində irəliyə atılmış bir addım kimi dəyərləndirilə bilər [6] .Türkologiyada coğrafiya terminlərinin öyrənilməsi XX əsrin əvvəllərindən başlanmışdır. Türkiyədə coğrafiya terminlərinə dair əsərlər ilk və orta məktəb şagirləri və müəllimlər üçün yazılmışdır[7]. Türkiyədə coğrafiya terminlərinin öyrənilməsində M.R.İzbırakın böyük rolu olmuşdur. Onun türk dilindəki coğrafiya terminləri lüğətlərində türkcə coğrafiya terminlərinin ingilis, fransız, alman dillərində qarşılıqları da yer almışdır [8] . Qeyd etmək lazımdır ki, Türkiyədə coğrafiya terminologiyası ilə bağlı aparılan tədqiqatlar əsasən terminoloji lüğətlərin tərtibi və terminlərin toplanaraq sistemləşdirilməsi istiqamətində həyata keçirilmişdir. Bununla belə, coğrafiya terminlərinin nəzəri-linqvistik aspektdən kompleks şəkildə təhlilinə kifayət qədər diqqət yetirilməmişdir[9]. Türk xalqlarının coğrafiya terminologiyasının öyrənilməsi sahəsində E.M. Murzayevin mühüm elmi xidmətləri olmuşdur. Alim keçmiş sovet məkanındakı türkdilli coğrafiya terminlərini tədqiqata cəlb etmiş, lüğətlər tərtib etmişdir[10].

Rus dilçiliyində də coğrafiya terminlərinin öyrənilmə tarixi XX əsrin 40-cı illərinə təsadüf edir. İlk olaraq coğrafiya terminləri

---

[6] Seyfullayeva, N.S., Hacıyev, N.M. Coğrafiya terminləri lüğəti / N.S.Seyfullayeva, N.M.Hacıyev. – Bakı: Altun kitab, – 2016. – 345 s.

[7] İlk və orta öğretim coğrafiya terimleri / – İstanbul: – 1939. – 389 s.

[8] İzbırak, M.R. Coğrafiya terimleri sözlüğü. [almanca, fransızca, ingiliscə karşılıklar eski və yeni şekilleriyle] / M.R. İzbırak. – Ankara: –1976. – 134 s.; İzbırak, M.R. Coğrafya terimleri sözlüğü / M.R. İzbırak. – Ankara: Emel Matbaaçılık Sanayiik, – 1975. – 256 s.; İzbırak, M.R. Coğrafya terimleri üzerine bazı düşünceler / M.R.İzbırak. – Ankara: Doğu Matbaası, TDK, – 1949. – 356 s.

[9] Osman, Y.F. Ansiklopedik coğrafiya sözlüğü / Y.F.Osman. – İstanbul: Aku Kitabevi, – 1957. – 376 s.; Öngör, O.S. Coğrafya Sözlüğü / O.S.Öngör. –İstanbul: Milli Eğiktim Bakanlığı Basımevi, –1961. –348 s.; Öngör, O.S. Coğrafya terimleri sözlüğü / O.S.Öngör. – Ankara: TDK, – 1980. – 456 s.

[10] Мурзаев, Э.М. Средня Азия: Физико-географический очерк / Э.М.Мурзаев. – 2–е изд., доп. – Москва: Географгиз, – 1957. – 272 с. ; Мурзаев, Э.М. Очерки топономики / Э.М.Мурзаев. – Москва: Мысль, –1974. – 382 с.; Мурзаев, Э.М. Тюркские географические названия / Э.М.Мурзаев. –Москва: Восточная литература , – 1996. – 252 с.

lüğətləri tərtib olunmuşdur daha sonrakı illərdə isə coğrafiya terminlərinin linqvistik xüsusiyyətləri öyrənilmişdir[11] .

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti müasir Azərbaycan dilindəki coğrafiya terminləridir. Predmeti isə müasir Azərbaycan dilindəki coğrafiya terminlərinin leksik-semantik xüsusiyyətlərinin təhlilidir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın əsas məqsədi Azərbaycan dilindəki coğrafiya terminlərinin leksik-semantik xüsusiyyətlərini araşdırmaq, bu terminlərin mənşə və strukturunu öyrənməkdir. Bu məqsədin həyata keçirilməsi üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

-Azərbaycan dilində coğrafiya terminoloji sisteminin milli dil əsasında inkişafını öyrənmək, ümumi leksikada terminləşmə və coğrafiya terminlərində determinləşməni izləmək;

-Azərbaycan ədəbi dilinin lüğət tərkibinin zənginləşməsində coğrafiya terminlərinin rolunu və mövqeyini dəqiqləşdirmək, onların leksik-semantik xüsusiyyətlərini və yaranma yollarını aydınlaşdırmaq;

-iqlim, biocoğrafiya və xəritəçəkmə ilə bağlı coğrafiya terminlərinin terminologiyadakı mövqeyini izləmək;

-coğrafiya terminlərinin işlənmə tezliyini müəyyənləşdirərək onların təşəkkül və inkişaf prosesini izləmək;

-coğrafiya terminologiyasının inkişafına təsir göstərən terminoloji və coğrafiya lüğətlərini tədqiqata cəlb etmək və onların səciyyəvi cəhətlərini qeyd etmək;

[11] Боднарский, М.С. Словарь географических названий / М.С.Боднарский. – Москва: Изд. Государственное учебно–педагогическое издательство, – 1954. – 455 с.; Попов, А.И. Географические названия: Введение в топонимику / А.И.Попов. – Москва-Ленинград, – 1965. – 181 с.; Поспелов, Е.М. Географические названия мира: Топонимический словарь / Е.М.Поспелов. – Москва: – 1998. – 503 с.; Трёшников, А.Ф. Географический энциклопедический словарь. Географические названия / А.Ф.Трёшников. – Москва: Советская энциклопедия, – 1989. – 592 с.

-coğrafiya terminlərinin leksik-semantik xüsusiyyətlərini araşdırarkən onların başqa sahə terminləri ilə semantik əlaqəsini, omonimliyi, sinonimliyi və çoxmənalılığını üzə çıxarmaq;

-leksik-semantik, morfoloji, sintaktik, kalka və abreviatur üsulu ilə yaranan coğrafiya terminlərini sistemləşdirmək;

-alınma coğrafiya terminlərinin Azərbaycan dilində assimilyasiya prosesini müəyyənləşdirərək onların dilə daxil olma yollarını və üsullarını aydınlaşdırmaq;

-coğrafiya terminlərində baş verən semantik prosesləri müəyyənləşdirmək və coğrafiya terminlərinin işləklik qazanmasını və onun inkişaf qanunauyğunluqlarını dəqiqləşdirmək;

-alınma coğrafiya terminlərinin milli dillərdə paralelliyini yaradan səbəbləri müəyyənləşdirmək; beynəlmiləl sözlərin Azərbaycan dilinə transliterasiya yollarını və ümumi xüsusiyyətlərini aydınlaşdırmaq;

-coğrafiya terminlərinin yaranmasında və bir dildən digərinə keçməsində kalka və tərcümənin rolunu aydınlaşdırmaq;

-alınma və beynəlmiləl coğrafiya terminlərinin dilimizə keçmə səbəblərini və mənşəyini aydınlaşdırmaq, həmçinin onları mənşə baxımından təsnif edib sistemləşdirmək;

-Azərbaycan dilindəki xalq coğrafiya terminlərini araşdırmaq və onların elmi terminoloji sistemdəki yerini təyin etmək.

Tədqiqatın metodları. Tədqiqat işində dilçiliyin ənənəvi tədqiqat üsullarını özündə birləşdirən təsviri, müqayisəli-qarşılaşdırma metodları əsas götürülmüşdür. Araşdırma zamanı əsas mənbə kimi Azərbaycan dilində tərtib edilmiş müxtəlif tipli lüğətlərdən istifadə edilmişdir.

Müdafiəyə çıxarılan əsas müddəalar:

-Azərbaycan dilində coğrafiya terminlərinin işlənmə tarixi çox qədimdir.

-Dilin ümumişlək leksikası ilə terminoloji leksika daim bir-biri ilə qarşılıqlı əlaqədədir və bu hal dilin leksikoloji sistemində reallaşır.

-Dilin leksikasında daim terminləşmə və determinologizasiya prosesi gedir. Ümumişlək sözlər terminlərə çevrilməklə bərabər, həm də terminlər zamanla ümumişlək leksik qatda yer alır.

-Azərbaycan dilindəki coğrafiya terminlərinin böyük bir qismi semantik üsulla reallaşır. Bu tip coğrafiya terminləri dilin daxili imkanları hesabına yaranan dil vahidləridir.

-Azərbaycan dilindəki coğrafiya terminlərinin müəyyən bir qismi leksik şəkilçilər vasitəsilə reallaşır. -Digər elm sahələrinə dair coğrafiya terminləri kimi coğrafiya terminlərinin də böyük bir qismi sintaktik üsulla yaranır.

-İqlimlə, biocoğrafiya, xəritəçəkmə ilə bağlı coğrafiya terminləri dildə özünəməxsus xüsusiyyətləri ilə fərqlənir.

-Qloballaşan dünyada coğrafiya terminlərinin optimallaşdırılması və normativləşdirilməsi dövrün ən vacib tələblərindən biridir.

- Termin və terminoloji sahə anlayışları terminologiyanın əsas kateqoriyaları sayılır.

Tədqiqatın elmi yeniliyi. Coğrafiya terminlərinin dilin leksik sistemindəki yeri, dilin ümumişlək leksikası ilə terminoloji leksika arasındakı qarşılıqlı əlaqənin öyrənilməsi araşdırmanın yeniliyi kimi dəyərləndirilə bilər. Ümumişlək leksikanın terminləşməsi və coğrafiya terminlərinin determinologizasiyası prosesinin öyrənilməsi də dissertasiyanın əsas məğzini təşkil edir. Dissertasiyada ilk dəfə Azərbaycan dilində coğrafiya terminlərinin təşəkkül və inkişafında ədəbi-bədii qaynaqların, dialektlərin, ümumxalq danışıq dilinin, coğrafiyaya aid elmi ədəbiyyatın və lüğətlərin rolu müəyyənləşdirilmişdir.

Dissertasiyada araşdırılan semantik, morfoloji və sintaktik üsullarla coğrafiya terminlərinin yaranması, coğrafiya terminoloji vahidlərinin əmələ gəlməsində dil əlaqələrinin rolu, alınma coğrafiya terminlərinin xüsusiyyətlərinin öyrənilməsi əsərin əsas yeniliklərindən biridir. Kalka üsulu ilə yaranmış coğrafiya terminləri, beynəlmiləl səciyyəli coğrafiya terminləri, coğrafiya terminlərinin ixtisarı və abreviaturası ilk dəfə bu tədqiqat işində hərtərəfli şəkildə öyrənilmişdir. Bununla bərabər, dissertasiyada toponim, oykonim, oronim, hidronim səciyyəli, həmçinin iqlim, biocoğrafiya, xəritəçəkmə və relyeflə bağlı coğrafiya terminləri də dilçilik prizmasından ilk dəfə hərtərəfli şəkildə tədqiq edilmişdir. Əsərdə ilk

dəfə olaraq xalq coğrafiya terminologiyası da elmi terminologiya ilə bərabər araşdırılmışdır.

Tədqiqatın nəzəri və praktik əhəmiyyəti. Dissertasiya mövzusu həm nəzəri, həm də təcrübi əhəmiyyət daşıyır. Dissertasiya işindən gələcəkdə sahə terminologiyası ilə bağlı aparılacaq araşdırmalarda, dərs vəsaiti və monoqrafiyaların, terminoloji lüğətlərin hazırlanmasında və s. yararlanmaq mümkündür. Tədqiqat işindən universitetlərin filologiya və coğrafiya fakültələrində tədris zamanı istifadə etmək mümkündür.

Tədqiqatın aprobasiyası və tətbiqi. Müəllif tədqiqat mövzusu ilə bağlı müxtəlif beynəlxalq və respublika səviyyəli konfranslarda çıxış etmişdir. Dissertasiya müəllifinin 13 məqalə və tezisi AAK-ın tövsiyə etdiyi elmi jurnallarda dərc olunmuşdur.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Bakı Slavyan Universitetinin Azərbaycan dili kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi. Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş 9 səhifə, I fəsil 28 səhifə, II fəsil 40 səhifə, III fəsil 45 səhifə, nəticə 5 səhifə, istifadə edilmiş ədəbiyyat siyahısı 15 səhifə. Dissertasiya işi ümumilikdə 145 səhifə, 230 044 işarədən ibarətdir.

TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqat işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat təqdim edilir.

Dissertasiyanın "**Sahə terminologiyasının tədqiqinin nəzəri məsələləri və coğrafiya terminologiyasının xüsusiyyətləri"** adlı I fəsli beş yarımfəsildən ibarətdir.

“Termin, terminologiya, terminoloji sistem və terminoloji sahə anlayışları” adlı birinci yarımfəsildə terminologiya, termin sistemliliyi məsələsinə dilçilikdə mövcud yanaşmalara münasibət bildirilmişdir. Terminologiyanın nizamlı inkişafı üçün mütləq şəkildə sahə terminləri toplanmalı və seçilməlidir. Sahə terminologiyasının toplanılıb müəyyən bir sistemə salınması prosesi isə inventarlaşma adlanır. S.Sadıqova bu haqda yazır: “*Bu prosesdə müəyyənləşdirilmiş termin variantlarının siyahıda bir sətirdə qeydə alınması zamanı da müəyyən ardıcıllıq seçilməlidir. Qeyd olunduğu kimi, terminlər sahəyə aid yazılmış əsərlərdən toplanır. Hər bir sahə müəyyən meyarlar üzrə təsnif edilir, onun bölmələri, yarımbölmələri müəyyənləşir. Sahə ilə bağlılığı olan digər sahələr təyin edilir”*[12].

Müxtəlif elm sahələrində olduğu kimi, coğrafiya elmi, onun müxtəlif sahələrinə aid terminlərin yaranması, onların toplanılıb tədqiq edilməsi də mühüm əhəmiyyət daşıyır.

“Dilin ümumişlək leksikası ilə coğrafi terminoloji leksikanın qarşılıqlı əlaqəsi” adlı II yarımfəsildə dilin ümumi leksikası daxilində terminoloji leksikanın mövqeyi, terminlərin determinləşməsi, yaxud ümumişlək sözlərin terminləşməsi və onların fərqli xüsusiyyətlərindən bəhs edilmişdir. Ümumişlək leksikanın terminləşmə prosesini İ.Qasımov çox dəqiqliklə ifadə etmişdir. *“…ümumi ad funksiyası daşıyan bir çox dil elementləri müəyyən mühitdən kənarda xüsusi funksiya qazanır və dilin xüsusi leksik qatına daxil ola bilir. Məsələn, müxtəlif canlıların adları (zoonimlər), bitki adları (fitonimlər), məişətlə bağlı olan bir çox anlayış adları (somatizmlər, qohumluq bildirən sözlər, yemək adları və s.) da ümumişlək mühitdən kənarda müəyyən sahə ilə məşğul olan mütəxəssislərin dilində xüsusi funksiya kəsb edərək xüsusi leksik qatın vahidinə çevrilir”*[13].

Dilin terminoloji qatında xüsusi bir sahəni təşkil edən və özünəməxsus xüsusiyyətləri ilə seçilən coğrafiya terminləri də bu baxımdan istisna təşkil etmir.

---

[12] Sadıqova, S. Müasir Azərbaycan ədəbi dilində termin yaradıcılığı prosesi / S.Sadıqova. – Bakı: Elm, – 2010. – s. 231.

[13] Qasımov, İ. Azərbaycan terminologiyasının əsasları / İ.Qasımov. – Bakı: Elm və təhsil, – 2017. – s. 85.

Sahə terminologiyasında terminlər iki yerə bölünür:

1. Müəyyən qrup terminlər ümumişlək leksikada uzun əsrlər işləndikdən sonra terminlik funksiyası daşımağa başlayırlar. Burada xalq və ya yerli coğrafiya terminləri böyük rol oynayır. Məsələn, *leysan*-qısamüddətli, böyük intensivliyə malik atmosfer yağıntısı; *payız*-yayla qış arasında qalan fəsil, ilin dörd fəslindən biri; *külək*-havanın yüksək təzyiq sahəsindən alçaq təzyiq sahəsinə doğru Yer səthi üzərində üfüqi yerdəyişməsi və s.

2. Dilə yalnız coğrafiya termini kimi daxil olub termin kimi də yalnız elmi üslubda işlənənlər. Məsələn, *fraxt*-1) nəqliyyatın müxtəlif növləri, xüsusilə dəniz və hava nəqliyyatı vasitəsilə yük, sərnişin daşımasına görə ödənilən yolxərci; *emissiya*-vulkan püskürməsi, zəlzələ kimi təbiət hadisələri zamanı enerjinin ətraf mühitə buraxılması və s.

I fəslin **"Ümumi leksikada terminləşmə və determinləşmə"** adlı üçüncü yarımfəslində ümumişlək sözlərin terminləşməsi prosesi araşdırılmış, onun mənfi və müsbət cəhətləri göstərilmişdir. Bu yarımfəsildə determinləşmə prosesi təhlil olunmuş, bu prosesdə alınmaların aktiv funksiya daşıdığı qeyd edilmişdir. Burada, həmçinin transterminləşmə prosesi haqqında məlumat verilmişdir.

I fəslin **"Coğrafiya terminlərinin dilin leksik sistemində yeri"** adlı dördüncü yarımfəslində coğrafiya terminlərinin dilimizdə öyrənilməsi və "Coğrafiya terminləri lüğəti"nin yaranması tarixindən, onların milli mənşəyindən, həmçinin bu terminlərin tarixi baxımdan işlənilməsi xüsusiyyətlərindən bəhs edilmişdir. İlk coğrafiya lüğətin 1921-ci ildə layihə şəklində "Coğrafiya terminləri lüğəti" olduğu qeyd edilmişdir.

"Azərbaycan dilində coğrafiya terminologiyasının formalaşması və inkişafı" adlı II fəsildə coğrafiya terminlərinin yaranma yolları araşdırılmışdır. Bu fəslin **"Azərbaycan dilində coğrafiya terminoloji sisteminin milli dil əsasında inkişafı: semantik üsulla yaranan terminlər"** yarımfəslində coğrafiya terminlərinin böyük əksəriyyətinin xalq dilindən qaynaqlandığı qeyd edilmişdir. Dilin daxili imkanları əsasında terminlər yaradılarkən əsasən bu yollardan istifadə olunur: dildəki ümumişlək sözlər terminləşir; dialekt və şivələrdə, xalq danışıq dilində uzun əsrlər

boyu işlənmiş sözlərdən istifadə olunur, başqa sözlə desək, bu sözlər terminləşir; qədim yazılı və şifahi abidələrimizdəki sənətkarlıqla, yerin quruluşu, ətraf aləm, təbiət hadisələri ilə bağlı sözlər terminləşərək coğrafiya termin funksiyasını yerinə yetirir; sözyartama yollarından istifadə edilərək milli zəminli yeni coğrafiya terminləri yaranır.

Burada coğrafiya terminlərinin semantik təsnifatı da verilmişdir.

Bəhs olunan yarımfəsildə terminyaratma yollarından bəhs edilmiş, müasir Azərbaycan dilində semantik üsulla coğrafiya terminlərinin yaranmasının daha çox dilimizin daxili imkanları hesabına baş verdiyi göstərilmişdir.

M.Qasımov semantik üsulun ilk dönəmlərdə terminyaratmada həlledici rol oynadığını qeyd etmişdir. Alim bunu belə izah edir: *"Elm təşəkkül edən zaman elmi idrakın ümumi inkişafı elə bir şəkildə idi ki, termin yaradıcılığını sözlə anlayışın uyğunluğu deyil, müəyyən oxşarlıqlar təyin edirdi"*[14].

II fəsilin **"Morfoloji üsulla coğrafiya terminlərinin yaranması"** adlı ikinci yarımfəslində terminlərin, o cümlədən coğrafiya terminlərinin yaranmasında da sözdüzəldici şəkilçilərin böyük rol oynadığı qeyd edilmişdir. Burada coğrafiya terminlərinin kökü və yeni termin yaradan şəkilçilər mənşəyinə görə təhlil edilmişdir.

Azərbaycan dilində düzəltmə terminlər isimdən, feildən və digər nitq hissələrindən yarana bilir.

Kökü isim olan düzəltmə coğrafiya terminlər: Məsələn, *sədəfli buludlar*- stratosferdə 20-26 km hündürlükdə müşahidə olunan xırda buz kristallarından ibarət çox nazik buludlar.

Kökü feil olan düzəltmə coğrafiya terminləri: Məsələn, *qoruq*- təbii şəraitinə, bitki və heyvanlar aləminə, tarixi əhəmiyyətinə görə elm, mədəniyyət. təsərrüfat üçün müstəsna əhəmiyyət kəsb edən, dövlət tərəfindən mühafizə olunan sahə; *qoruyucu meşələr*- öz meliorativ və mühityaradıcı xüsusiyyətləri ilə müxtəlif coğrafiya

[14] Qasımov, M. Azərbaycan dili terminologiyasının əsasları / M.Qasımov. – Bakı: Elm, – 1973. – s. 123.

obyektləri əlverişsiz təbii və antropogen amillərin təsirindən qoruyan təbii, həmçinin süni meşələr.

Kökü digər nitq hissələrindən yaranan coğrafiya terminləri: Məsələn, *tarazlıq profili-* çayın eroziya bazisinə yetişdiyi, yatağını dərinləşdirməyə daha gücü çatmadığı, eyni zamanda onu yeni çöküntülərlə doldurmadığı sabit vəziyyəti.

"Sintaktik üsulla coğrafiya terminlərinin yaranması" adlı üçüncü yarımfəsildə dilimizdəki coğrafiya terminlərinin böyük əksəriyyətinin mürəkkəb və söz birləşməsi şəklində terminlər olması bildirilmişdir.

Coğrafiyaya aid mürəkkəb terminlər də sintaktik yolla iki model əsasında formalaşır: *leksik-sintaktik* və *morfoloji-sintaktik*.

Leksik-sintaktik üsulla yaranan terminlər əsasən I növ təyini söz birləşməsi şəklində olurlar. Yanaşma əlaqəsi ilə birləşən terminlərdə ciddi qayda özünü göstərir. Belə birləşmələrdə təyin həmişə təyin olunandan əvvəl gəlir. Məsələn, *qranit təbəqə-* Yer qabığının çökmə süxurlarla alt təbəqəsi arasında yerləşən qatı; *qarışıq meşə-* Şimal və cənub yarımkürələrinin mülayim qurşaqlarında enliyarpaqlı və iynəyarpaqlı ağac növlərindən ibarət meşə və s.

Morfoloji-sintaktik üsulla yaradılan coğrafiya terminlərində isə komponentlərin birləşməsində morfoloji əlamətlərdən – həm leksik, həm də qrammatik şəkilçilərdən istifadə edilir və yeni anlayışlı terminlər əmələ gəlir. Məsələn: *nerit çöküntülər-* əsasən sahilə yaxın dərinliyi 200 metrədək olan sahələrdə müxtəlif süxurların toplanması nəticəsində əmələ gəlir; *ekoloji təcavüzkarlıq-* bir ölkənin özünün ekoloji cəhətdən çirkli istehsal sahələrini və təhlükəli tullantılarını başqa ölkələrin ərazisində yerləşdirməsi və s.

Müasir Azərbaycan dilində mürəkkəb quruluşa malik coğrafiya terminlərinin təhlili göstərir ki, bu dildə mürəkkəb coğrafiya terminlərinin yaranmasının iki əsas üsulu mövcuddur:

1. Komponentləri tabesizlik əlaqəsi əsasında birləşən coğrafiya terminləri. 2. Tabelilik əlaqəsi əsasında formalaşan coğrafiya terminləri. Məsələn, *dağ-dərə küləkləri* – gündüz dərələrdən dağlara (dərə küləkləri), gecə isə dağlardan dərələrə (dağ küləkləri) əsən küləklər. Bu birləşmədə "dağ-dərə" arasında

tabesizlik əlaqəsi mövcuddur. Ümumilikdə bu birləşmədə həm tabesizlik, həm də tabelilik əlaqələri olan uzlaşma və idarə əlaqələri də mövcuddur.

M.Qasımov yazır: *"Sintaktik üsulla terminlər yaradılarkən, adətən, iki və daha artıq söz birləşməsindən istifadə olunur"*[15]. Azərbaycan dilinin coğrafiya terminləri üzərində apardığımız araşdırmalarda görürük ki, coğrafiya terminləri 2, 3, bəzən də 4 komponentli olur. Məsələn, *yenidən törənmiş dağ sistemləri*- dörd komponentli termindir. "*Elmi anlayışların ifadəsi üçün lazım olan termin-birləşmələrə ehtiyacın artması, onu təşkil edən tərəflərin kəmiyyətcə çoxalması bir tərəfdən dildə baş verən dəyişikliklərə, digər tərəfdən elmin müxtəlif sahələrinin inkişafı ilə bağlıdır. Dörd, beş, altı, hətta yeddi sözdən ibarət termin-birləşmələr dili ağırlaşdırır"*[16].

"Coğrafiya terminoloji vahidlərinin yaranmasında dil əlaqələrinin rolu" yarımfəslində dillər arasındakı qarşılıqlı sözalma, onların zənginləşməsində bu prosesin əhəmiyyətindən bəhs etmişdir.

Azərbaycan dilindəki coğrafiya fondun böyük bir hissəsinin Avropa mənşəli terminlərin-latın, yunan, ingilis, fransız, ispan, italyan, holland mənşəli coğrafiya terminlərinin təşkil etməsi onu deməyə əsas verir ki, Azərbaycan dilinin terminoloji sistemi Avropa dilləri ilə daim əlaqədə olmuşdur. Təbii ki, coğrafiya kəşflərin çox qismi ispanlar, ingilislər, ümumən avropalılar tərəfindən olunduğu üçün terminoloji fondumuzda Avropa mənşəli coğrafiya terminlərinin sayı da müəyyən çəkiyə malikdir.

II fəslin 4-cü yarımfəsli üç başlıqdan ibarətdir. "Alınma coğrafiya terminləri" başlığı altında müasir Azərbaycan dilindəki coğrafiya terminləri mənşə baxımından aşağıdakı şəkildə təsnif edilmişdir:

1. Milli mənşəli coğrafiya terminləri
2. Ərəb və fars mənşəli coğrafiya terminləri
3. Avropa mənşəli coğrafiya terminləri

[15] Qasımov, M. Azərbaycan dili terminologiyasının əsasları / M.Qasımov. – Bakı: Elm, – 1973. – s. 186.

[16] Qasımova, X. Müstəqillik illərində Azərbaycan dilində termin yaradıcılığının əsas istiqamətləri / X.Qasımova. – Bakı: Elm, – 2009. – s. 69.

Milli mənşəli coğrafiya terminləri funksional baxımdan işləkliyi və anlaşıqlılığı ilə seçilir. Bu qrupa daxil olan terminlər kəmiyyət baxımından üstünlük təşkil edir. Məsələn, çöl – "mülayim və subtropik iqlim qurşaqlarında əsasən ot bitkilərindən ibarət meşəsiz ərazi", daşqın – "çay dərəsinin subasarından hündürlükdə yerləşən ərazilərin su altında qalması" və s.

Digər elm sahələrində olduğu kimi, Azərbaycan dilindəki coğrafiya terminlərinin də böyük qismini ərəb və fars mənşəli terminlər təşkil edir. XX əsrin 1920-ci illərindən etibarən ərəb və fars sözlərinin milli sözlərlə əvəz olunması istiqamətində müəyyən işlər aparılmışdır. Hətta bir çox termin üçün yeni qarşılıqlar da yaradılmışdır.

Tədqiqatlar göstərir ki, dilimizdəki alınma sözlərin 28%-İni yunan və latın alınmaları təşkil edir. N. Məmmədli yunan mənşəli terminləri klassik alınmalar adlandırır. Onlar dilimizə rus dili vasitəsilə keçir[17]. Bu cür terminlərin çoxu beynəlmiləl səciyyəsi ilə seçilir. Məsələn, *kriptozoy*- yunan mənşəli iki hissəcikdən ibarətdir. yun.*kryptos*-gizlin+ *zoe*-həyat.

Coğrafiya terminləri arasında beynəlmiləl terminlər də xüsusi lay təşkil edir. *"Beynəlmiləl sözlərə hansı kriteriyalara görə yanaşmalarından asılı olmayaraq, dünya dilçilərinin əksəriyyəti bu fikirdə yekdildirlər ki, beynəlmiləl sözlər ən azı üç və daha çox müxtəlif sistemli dillərin lüğət tərkibində özünə yer almalıdır və işləndiyi dillərin hamısında eyni semantik mənaya və oxşar səs qişasına malik olmaqla dilin elm, texnika, mədəniyyət, incəsənət, siyasət, idman, hərb və s. sahələrinə aid anlayış və məfhumları ifadə etməlidir"*[18].

Azərbaycan terminoloji sistemində beynəlmiləl coğrafiya terminlərinə də çox rast gəlirik. Məsələn, *qlobus*-latın mənşəli bu termin bir çox dillərdə işlənir və bu leksik vahid beynəlmiləl xarakter daşıyır.

[17] Məmmədli, N. Azərbaycan dilində alınma terminlər / N.Məmmədli. – Bakı: Elm və təhsil, – 2017. – s. 268.

[18] Qasımov, M. Azərbaycan dili terminologiyasının əsasları / M.Qasımov. – Bakı: Elm, – 1973. – s. 49.

“Kalka üsulu ilə coğrafiya terminlərinin yaranması” bölməsində göstərilir ki, cəmiyyətin sürətli inkişafı nəticəsində terminalmada daha asan və əlverişli vasitələrdən biri kalka üsuludur. Buna görə də bütün terminoloji sahələrdə, o cümlədən coğrafiya terminologiyasında kalka üsuluna tez-tez müraciət olunur. M.İsmayılova yazır: “*Biz kalkanın terminalmadan fərqini kalka üsulu ilə yeni yaradılan terminin tərkibini morfemlərdən heç olmasa, birinin hərfi tərcümə yolu ilə verilməsi ilə bağlayırıq”*[19].

Azərbaycan dilindəki kalka üsulu ilə yaranmış coğrafiya terminlərindən bəhs edildikdə ilk yada düşən rus dilindən kalkalar olur. Kalka edilmiş coğrafiya terminlərini əsasən belə qruplaşdıra bilərik:

Birləşmə şəklində olan coğrafiya kalkalarının hər iki tərəfi rus dilindən kalka edilir. Məsələn, *Пик паводка - daşqın zirvəsi; пески бугристые - qum təpəcikləri; вершина горная - dağ zirvəsi; буря черная - qara fırtına* və s.

Birləşmə şəklində olan coğrafiya termininin birinci tərəfi kalka edilir, ikinci tərəf alınan dildəki kimi saxlanılır. Məsələn, *ярус структурный - struktur mərtəbə; круг азимутальный - azimuthal dairə; источник термальный - termal bulaq; бассейн магматический - maqmatik hövzə* və s.

Birləşmə şəklində olan coğrafiya termininin birinci tərəfi rus dilindəki kimi işlənir, ikinci tərəfdəki söz isə kalka edilir. Məsələn, *эрозия речная - çay eroziyası; цирк ледниковый – buzlaq sirki; пирамиды земляные –torpaq piromidlər; брекчия пещерная – mağara brekçiyası* və s.

IV yarımfəslin **“Coğrafiya terminlərinin ixtisarı və abreviatura”** bölməsində müasir Azərbaycan dilində abreviatura əsasında meydana çıxan coğrafiya terminləri araşdırılmışdır.

Abreviatura üsulu sözə qənaətə, birləşmə tipli terminlərin konkret terminlərlə əvəzlənməsinə şərait yaradır. S.Sadıqovanın fikrincə, *“abreviatur üsulu termin yaradıcılığında başqa üsullardan fərqlənir. Çünki bu üsulda bu və ya digər anlayışın ifadəsi üçün*

[19] İsmayılova, M. Azərbaycan dili terminologiyasının linqvistik təhlili / M.İsmayılova. – Bakı: Ozan, – 1997. – s. 118.

termin yaratmaq deyil, terminologiyada artıq mövcud olan terminləri əlverişli şəklə salmaq nəzərdə tutulur"[20].

XX əsrdən etibarən Azərbaycan dilinin terminoloji sistemində abreviaturaların kəmiyyət etibarilə artımı müşahidə olunmuşdur. Son dövrlərdə isə dilin daxili imkanları əsasında yeni ixtisar modellərinin formalaşması prosesi güclənmişdir.

Müasir Azərbaycan dilində coğrafiya terminlərindən aşağıdakı ixtisarları (abreviaturaları) nümunə göstərə bilərik:

*ETİ (*elmi-texniki inqilab) – elmin bilavasitə istehsal qüvvəsinə çevrilməsi nəticəsində məhsuldar qüvvələrin keyfiyyətini əsaslı surətdə dəyişməsi;

*ETT (*elmi-texniki tərəqqi) – elmin nailiyyətlərinin yeni texnika və texnologiyalara tətbiqi nəticəsində istehsal prosesinin səmərəliliyinin və keyfiyyətinin artımı;

*SES (*su elektrik stansiyası) – su axını enerjisini elektrik enerjisinə çevirən qurğu və avadanlıqlar kompleksi və s.

Dissertasiyanın **"Azərbaycan dilində coğrafiya terminlərinin struktur-semantik və funksional xüsusiyyətləri"** adlı III fəslində coğrafiya terminlərinin struktur-semantik xüsusiyyətləri tədqiq edilmiş, Azərbaycan dilinin coğrafiya terminoloji sisteminə daxil olan toponimlər, oronimlər, hidronimlər, oykonimlər, eləcə də iqlim, atmosfer, biocoğrafiya və xəritəçəkmə ilə bağlı terminlər araşdırılmışdır.

III fəslin **"Toponim səciyyəli coğrafiya terminləri"** yarımfəslində Azərbaycan dilinin coğrafiya terminoloji sistemində toponimlərin kəmiyyət baxımdan və geniş xalq kütləsi arasında istifadə imkanlarının genişliyinə görə seçildiyi, həmçinin siyasi əhəmiyyət daşıdığı bildirilmişdir. Cəmiyyətdə, dövlətdə baş verən siyasi hadisələr, ərazi bölgüləri, ictimai formasiyalarda olan dəyişiklik birbaşa toponimlərdə təzahür edir. *"Xüsusi olaraq toponomiyanı bir növ insan tarixinin kodu kimi təsəvvür etmək olar. Burada ənənələr, dil formaları və dilin özü qalır, dünyanı anlamaq*

[20] Sadıqova, S. Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşması və inkişafı / S.Sadıqova. – Bakı: Elm, – 1997. – s. 122.

səviyyəsi əksini tapır və xalqın həyatına ən mühüm hadisələr hopur"[21].

Toponim səciyyəli coğrafiya terminlərinə bütün obyeklərin adları şamil edilir. Toponimik coğrafiya terminləri, hər şeydən əvvəl yarandığı dövrlərin dil xüsusiyyətlərini özündə əks etdirərək həmin dilin qrammatik qayda-qanunlarına uyğun surətdə yaranır. *"Toponimika istənilən tarixi zaman kəsiyində coğrafiya terminlərinin mənşəyini öyrənir, artıq mövcud olmayan kəndlərin yerini aydınlaşdırır, tarixi toponimika mahiyyətcə tarixi coğrafiyanın çox mühüm hissəsini təşkil edir"*[22].

"Relyeflə bağlı coğrafiya terminləri" yarımfəslində bildirilir ki, Azərbaycan dilinin coğrafiya terminoloji sistemində müəyyən bir layı relyeflə bağlı coğrafiya terminləri təşkil edir. Relyef – latın mənşəli termindir. Azərbaycan dilinin coğrafiya terminoloji sistemində relyef anlayışı ilə bağlı terminlər mühüm yer tutur və bu sahəyə aid leksik vahidlərin say etibarilə çoxluğu müşahidə olunur. Məsələn, *bedlend-* ingilis mənşəli termindir və "yararsız torpaq" semantikasındadır. Yarğan və dərələrlə kəskin parçalanmış relyef, istifadə üçün yararsız alçaq dağlıq ərazi, təpəlik; *barxan-* qumlu səhrada relyef forması, küləyin sovurub yaratdığı qum təpələri; *delta-* çayın gətirdiyi çöküntülərin onun mənsəbində yaratdığı, axın istiqamətində genişlənən relyef forması; *elüvial landşaft* – latın və alman sözlərindən ibarətdir. Relyefin yüksəklik hissələrində formalaşan, çöküntü yaradan maddə və materiallardan əmələ gələn, elementar landşaft forması.

"Oronim səciyyəli coğrafiya terminləri" yarımfəslində bildirilmişdir ki, oronimlər torpağın üst qatını, relyef quruluşunu bir birindən fərqləndirir. Azərbaycanın coğrafi arealı, təbii coğrafiya obyektlərinin zənginliyi bir-birindən fərqli coğrafi adların

[21] Архангельский, Н.П. Среднеазиатские вопросы географической терминологии / Н.П.Архангельский . –Ташкент: - 1935. – с. 3.

[22] Галкина-Федерук, Е.М. Современный русский язык. Лексика (курс лекции) / Е.М.Галкина-Федерук. – Москва: – 1954, – с. 24.

yaranmasına səbəb olmuşdur. Bəzi tədqiqatçıların fikrincə, tarixin təbəllüdatları təbiət obyektlərinin adlarına nisbətən az təsir göstərir[23].

Oronimlər tarixən türklərin həyat və məişət tərzinin, onların təbiətlə əlaqə və münasibətlərinin əksi kimi meydana çıxmışdır. Məhz bunun nəticəsində də qədim türklər təbiətlə – dağla, dərə ilə, yoxuşla, düzlə, ormanla və s. təmasda olmuş, fiziki-coğrafiya obyektləri bir-birindən fərqləndirmişdir[24].

Oronimlər yer səthinin relyef quruluşuna əsasən fərqlənən coğrafi obyektlərin adlarını ifadə edir. Azərbaycan dilinin coğrafiya terminoloji sistemində oronimlər mühüm yer tutur. Bura dağ, dərə, təpə, düz, yoxuş, eniş, meşə, qobu, örüş, sahə, qala, otlaq və s. yer adları aiddir. Məsələn, *Şahdağ, Göytəpə, Qızıltəpə, Kəndarası və s.*

"Adonim səciyyəli coğrafiya terminləri" yarımfəslində göstərilir ki, adonimlərə səhra, çöl, meşə, bağ, biçənək, otlaq və s. adlar daxildir. Azərbaycanın zəngin coğrafi landşaftı müxtəlif tipli oronim və adonimlərin meydana gəlməsinə səbəb olmuşdur. Bura, oykonim və hidronimlərə daxil olmayan bütün növ obyekt adları – *zirvə, dağ, dərə, təpə, eniş, yoxuş, gədik, aşırım, çökəklik, çuxur, yarğan, vadi, burun, meşə, çöl, düz, çəmən, sahə* və s. aid edilir.

"Coğrafi terminologiyada hidronimlər" yarımfəslində Azərbaycan dilində işlənən hidronimlər geniş təhlil olunmuşdur.

Su obyektlərinin ümumi adı olan *hidronim* sözü yunanca *hidro-* "su", *onoma-* "ad" sözlərindən ibarətdir.

Qədim dövrlərdən türklər *çay, su, göl, dəniz* və s. su mənbələri olan ərazilərdə məskunlaşmışlar. Su mənbələri olan yerlərdə bolluq, yaşayış, həyat da olmuşdur. "Harada su var, orada həyat var" atalar sözü də bunu təsdiq edir. Tarixən həmişə çay hövzələri sivilizasiyaların mərkəzi olmuşdur. *Dəclə, Fərat, Nil, Xuanke, Kür, Araz, Orxon, Yenisey, Arpaçay,* və s. çayların sahillərində yaranan sivilizasiyaları buna nümunə göstərə bilərik.

"Torpağı, suyu tanrı sayan və ya tanrı səviyyəsində dərk edən şumerlər Dəclə-Fərat çayları arasında yaratdıqları mədəniyyəti

[23] Нурджанова, Д.К. Казахская космонимия // Этнография имен сборник. – Москва: Наука, – 1971, – с. 74.

[24] İsmayılova, M. Azərbaycan dili terminologiyasının linqvistik təhlili / M.İsmayılova. – Bakı: Ozan, – 1997. – s. 136.

Yenisey-Orxon vadilərinə köçürmüş və onu davam etdirmişlər"[25]. *"Qədim sivilizasiyaların yaranmasında çayların böyük rolu olmuşdur"*[26].

Qədim insanlar öz dillərində çayları *"su, don, oya, gen, qet, ob, ra tuy, say, çu*" adlandırmışlar.

Coğrafi termin səciyyəli su obyektləri: çay, göl, arx, kəhriz, quyu, axmaz və s. fiziki, kimyəvi, coğrafi xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. Ona görə də su obyektlərinin adlandırılmasında çox vaxt onların əsas xüsusiyyətləri nəzərə alınırdı.

Azərbaycan ərazisində 3200 hidronomik obyekt mövcuddur ki, bu obyektlərin əksəriyyəti türk mənşəlidir. Hidronimlər bir çox coğrafiya obyekt adlarının yaranmasında əsas mənbə rolunu oynamışdır.

"İqlimlə bağlı coğrafiya terminləri" yarımfəslində terminlər mənşəyinə görə təsnif olunmuşdur.

Azərbaycan dilinin coğrafiya terminologiyasındakı iqlimlə bağlı terminlərin böyük bir qismini alınma leksik vahidlər təşkil edir. Bu tip terminlər əsasən sadə və birləşmə tipində olurlar. Məsələn, *adveksiya*- latın mənşəli termin olub, təzyiqin və temperaturun dəyişməsi ilə əlaqədar hava kütləsinin öz xassələrini saxlamaqla üfüqi istiqamətdə yerdəyişməsidir; *aerologiya* yunan mənşəlidir. Meteorologiya – atmosferin yuxarı qatlarını öyrənən elm sahəsi və s.

Azərbaycan dilində işlənən iqlimlə bağlı terminlərin bir qismi isə türkmənşəlidir. Məsələn, *ağ yel*- quru və isti külək; *ağ yağış*- daha çox yayın əvvəllərində az buludlu havada müşahidə edilən qısamüddətli güclü yağış; *burulğan*- havanın sütun və ya qıf formasında fırlanan hərəkəti; *bulud*- su buxarı kondensasiyalı məhsulların atmosferdən asılı və gözlə görünən toplusu. Səmada toplanan su buxar yığını.

"Atmosfer hadisələrini əks etdirən cografiya terminləri" yarımfəslində bildirilmişdir ki, Azərbaycan dilində atmosferlə bağlı

[25] Əliyeva, Z. Türk dillərində sifət / Z.Əliyeva. – Bakı: Elm və təhsil, – 2011. – s. 78

[26] Мурзаев, Э.М. Средня Азия: Физико-географический очерк / Отв. ред. акад. А.А.Григорьев. – 2-е изд., доп. – Москва: Географгиз, – 1957. – с. 10.

coğrafiya terminləri də intensiv işləkliyə malikdir. Atmosfer hadisələri ilə bağlı terminlər özləri də iki yerə bölünür: 1. Elmi üslubda işlənən atmosferlə bağlı terminlər; 2. Xalq danışıq dilində işlənən atmosferlə bağlı terminlər.

Atmosfer - (yun. *atmos* – "buxar" va *sphaira* – "təbəqə, kürə") Yeri əhatə edən qarvari hava təbəqəsi. Səma cisminin qazlardan ibarət örtüyüdür. Coğrafiya terminologiyasında "atmosfer" komponentli terminlərə rast gəlinir. Bu tip terminlər birləşmə quruluşlu olur. Məsələn, *atmosfer akustikası, atmosfer cəbhəsi, atmosfer fizikası, atmosfer şüaslanması, atmosfer təzyiqi, atmosferin hərəkət mərkəzləri*, *arid iqlim* - rütubət əmsalının vahiddən çox kiçik olduğu, torpaqda rütubətin kəskin çatışmadığı quraq iqlim şəraiti və s.

Xalq danışıq dilində işlənən atmosferlə bağlı terminlər də çoxluq təşkil edir. Atmosferlə bağlı coğrafiya terminlərinin böyük bir qismi həm ümumişlək leksikada, həm də terminologiyada işlənir. Məsələn, *boran* - küləkli qar və yağış, çovğun, qasırğa.

Türk dillərinin meteoroloji leksikasının təhlili V.Danilovanın "Türk dillərinin meteoroloji leksikası" əsərində verilmişdir[27].

"**Zaman semantikalı coğrafiya terminləri" yarımfəslində** Azərbaycan dilində zaman semantikalı coğrafiya terminlərinin sayca o qədər də çox olmadığı qeyd edilmişdir. Bunlar əsasən ilin fəsillərinin, ayların adlarını bildirir. Elmi terminologiya ilə müqayisə etsək, xalq coğrafiya terminologiyasında zaman semantikalı leksik vahidlər daha çoxluq təşkil edir.

Ə.Tanrıverdi bildirir ki, *"...yaz, yay, güz(payız) və qış sözləri tarixən günəşin hərəkətini ifadə edən feillər olub, sonrakı dövrlərdə isə zaman məzmunlu isimlərə transformasiya edilib*"[28].

Xalq terminologiyasında günün müəyyən hissələrinin adları verilir ki, bu dil vahidləri də etimoloji cəhətdən böyük maraq doğurur. Məsələn, *vəzirtuluq*-səhərin açılma vaxtı; *alaqaranlıq*-gündüzün axşam ilə qarşılaşdığı vaxt. Bəzən bu vaxta "iti qurddan

[27] Данилова, В. Метерологическая лексика тюркских языков: / автореферат диссертации доктора философии по филологии/ В.Данилова. – Ташкент, 1972. – с. 26.

[28] Tanrıverdi, Ə. Azərbaycan dilinin tarixi qrammatikası / Ə.Tanrıverdi. – Bakı: Elm və təhsil, – 2017. – s. 485.

seçməz vaxt" deyirlər; *dantoru-* alatoran, dan yeri açılanda; ertə-axşama yaxın və s.

Əlbəttə ki, bu leksik vahidlər coğrafiya elmi terminologiyasında yer almamışdır. Lakin xalq terminologiyasında işlənən bu zaman anlamlı leksemlər xalqın təbiətə, ətraf mühitə münasibətini əks etdirmək baxımından çox maraqlı dil vahidləridir.

"Biocoğrafiya ilə bağlı coğrafiya terminləri" yarımfəslində Azərbaycan ərazisinin müxtəlif regionlarında bitki, heyvan və mikroorqanizmlərin yayılma və yerləşmə qanunauyğunlaqları ilə bağlı terminlər araşdırılmışdır.

Biocoğrafiya coğrafiya, biologiya və ekologiya elmlərinin nailiyyətlərini özündə əks etdirməklə canlıların yayılması, inkişafı və ətraf mühitlə qarşılıqlı əlaqələri haqqında elmi və praktiki baxımdan əhəmiyyətli məlumatlar məcmusudur. Məhz buna görə də biocoğrafiyanın çox zəngin terminoloji bazası mövcuddur. Biocoğrafiyanın terminoloji bazası içərisində həm coğrafiya, həm biologiya, həm də ekologiyaya dair terminlər tapmaq mümkündür. Biocoğrafiyaya dair terminlərin böyük bir qismi "bio" hissəciyi ilə yaranır. "Bio" yunan mənşəli söz olub "həyat" deməkdir. Azərbaycan dilində mürəkkəb quruluşlu terminlərin yaranmasında fəal şəkildə iştirak edir. Azərbaycan dilində iki semantikada təzahür edir. 1. Mürəkəb sözlərin həyata, həyat proseslərinə aidlik bildirən tərkib hissəsini bildirir; 2. Biologiyaya aidlik bildirən, onun digər sözlərin əvvəlinə əlavə edilən qısa formasıdır.

N.Məmmədli haqlı olaraq bildirmişdir ki, "Avropa mənbəli alınma terminlərin Azərbaycan dilinin müxtəlif sferalarına təsiri eyni deyildir"[29]. Digər sahələrdən fərqli olaraq biocoğrafiya ilə bağlı terminlərin demək olar ki, hamısı Avropa mənşəlidir.

"Xəritəçəkmə ilə bağlı coğrafiya terminləri" yarımfəslində coğrafiya elminin bir bölməsi olan xəritəçəkmə və onunla bağlı terminlər araşdırılmışdır.

Xəritəşünaslıq – kartoqrafiyanın nəzəri əsaslarını, inkişaf tarixini, kartoqrafik mənbələrin təhlil metodlarını, bu mənbələrin

[29] Məmmədli, N. Azərbaycan dilində alınma terminlər / N.Məmmədli. – Bakı: Elm və təhsil, – 2017. – s. 225.

elementlərini, xüsusiyyətlərini və s. öyrənən elm sahəsi, kartoqrafiyanın bir bölməsidir.

Xəritəçəkmədə olan coğrafiya terminlərinin müəyyən bir qismini *"izo"* komponentli terminlər təşkil edir. *İzo-* yunan sözü olub, bərabər, eyni deməkdir. *İzo-* qoşulduğu sözlərə kəmiyyət əlaməti verən elementdir. "*İzo-* bərabərli, forma və təsdiq yerinə görə oxşarlıq bildirən sözlərin tərkib hissəsi kimi işlənir. *İzo-* elementli terminlərə yalnız coğrafiya elmində deyil, biologiya elmində də rast gəlinir. Məsələn, *izoanemon-* xəritədə küləyin orta sürəti eyni olduğu nöqtələri birləşdirən izoxət; *izoatm-* xəritədə buxarlanmanın eyni kəmiyyətə malik olduğu nöqtələri birləşdirən izoxət və s.

Coğrafiya terminləri lüğətində 20-dən çox *"izo"* komponentli terminə rast gəlinir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, xəritəşünaslığa, yəni kartoqrafiyaya dair coğrafiya terminlərinin böyük bir qismi alınma mənşəlidir. Bu terminlər əsasən mürəkkəb və tərkibi quruluşa malikdir.

Müasir Azərbaycan dilindəki coğrafiya terminlərinin linqvistik xüsusiyyətlərinə dair aparılan tədqiqat nəticəsində aşağıdakı elmi qənaətlərə gəlinmişdir:

1. İlk coğrafiya terminləri əsasən xalq danışıq dilində işlənən sözlərdən formalaşmışdır. Məsələn, dağ, düzən, çay kimi anlayışlar xalq dilində işlənməklə yanaşı terminoloji status da qazanmışdır. Bu fakt dilin təbii inkişafının və xalq yaradıcılığının terminoloji sistemə təsirini göstərir.
2. Alınma terminlər Azərbaycan coğrafiya elminin inkişafında mühüm yer tutur. Onların işlənməsi həm beynəlxalq əlaqələrin güclənməsinə, həm də elmi ünsiyyətin vahid terminoloji baza üzərində qurulmasına şərait yaratmışdır. Bu yolla formalaşan beynəlmiləl terminlər dünya elmində qəbul olunmuş anlayışları ifadə edir.
3. Dildə həm terminləşmə, həm də determinləşmə prosesləri intensiv şəkildə müşahidə olunur. Ümumişlək sözlərin terminə çevrilməsi yeni anlayışların ifadəsinə xidmət edir. Əksinə, bəzi terminlər zamanla məhdud sahədən çıxaraq geniş ictimai dilə daxil olur və yenidən ümumişlək məna qazanır.

4. Semantik üsul müasir Azərbaycan dilində coğrafiya terminlərinin yaranmasının əsas terminyaratma mexanizmlərindən biridir. Bu üsul nəticəsində sözlərdə semantik genişlənmə baş verir və terminlər yeni anlayışları ifadə etmək üçün uyğunlaşdırılır. Beləliklə, dilin daxili imkanları qorunur və yeni terminlər məna dəyişikliyi nəticəsində yaranır.
5. Morfoloji üsul da terminoloji sistemin zənginləşməsində mühüm rol oynayır. Sözdüzəldici şəkilçilər vasitəsilə yeni terminlər formalaşır və sadə sözlərdən mürəkkəb terminlər yaranır. Bu proses Azərbaycan dilinin coğrafiya terminologiyasının inkişafına xidmət edir.
6. Azərbaycan dilindəki coğrafiya terminləri mənşə baxımından üç əsas qrupa ayrılır: milli, ərəb-fars və Avropa mənşəli terminlər. Milli terminlər daha çox xalqın məişət və təbii şəraitlə bağlı təsəvvürlərini əks etdirir. Alınmalar isə elmi biliklərin genişlənməsi və beynəlxalq əlaqələrin təsiri ilə dilə daxil olmuşdur.
7.Beynəlmiləl terminlər müasir Azərbaycan coğrafiya terminologiyasında xüsusi yer tutur. Onlar müxtəlif sistemli dillərdə oxşar səs quruluşuna və eyni semantik mənaya malikdir. Belə terminlər qlobal elmi mühitdə qarşılıqlı anlaşmanı təmin edir və terminoloji sistemin beynəlmiləlləşməsinə səbəb olur.
8. Kalkalaşma üsulu ilə yaranmış coğrafiya terminləri də az deyil. Bu prosesdə xarici dildə mövcud olan terminlərin tərcümə yolu ilə Azərbaycan dilinə gətirilməsi müşahidə olunur. Belə terminlər həm dilin özünəməxsusluğunu qoruyur, həm də beynəlxalq elmi anlayışların mənimsənilməsinə imkan yaradır.
9.XX əsrdən başlayaraq coğrafiya terminologiyasında abreviaturalardan istifadənin intensivləşməsi müşahidə olunur. Bu hal elmin inkişafı ilə əlaqədar olaraq yeni mürəkkəb anlayışların qısa və yığcam formada ifadə olunması zərurətindən irəli gəlmişdir. Müasir dövrdə isə dilin daxili imkanları hesabına milli ixtisar formaları yaranmağa başlamışdır.
10.Relyeflə bağlı terminlər terminoloji sistemində ayrıca bir qat təşkil edir. Oronimlər və adonimlər vasitəsilə yer səthinin müxtəlif formaları və relyef xüsusiyyətləri adlandırılır. Bu terminlər həm

təbii-coğrafi təsnifat, həm də konkret obyektlərin adlandırılmasında mühüm əhəmiyyət daşıyır.
11.Hidronimik leksika Azərbaycan dilində qədim və zəngin qat olaraq xüsusi yer tutur. Su obyektlərinin adları çox qədim dövrlərdə formalaşmış və insanların məişəti ilə sıx bağlı olmuşdur. Bəzən eyni su obyektinin müxtəlif adlarla ifadəsi də müşahidə olunur ki, bu da dilin tarixi inkişafı ilə əlaqədardır.
12. Coğrafiya terminologiyasında iqlim, zaman və biocoğrafiyaya aid terminlər ayrıca əhəmiyyət daşıyır. İqlim terminlərinin əksəriyyəti alınma mənşəlidir, zaman semantikasına malik terminlər isə xalq coğrafi leksikasında daha geniş yayılmışdır. Biocoğrafiya terminlərinin isə böyük hissəsi Avropa mənşəlidir və regionların flora və faunasının təsvirində istifadə olunur.

Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin Azərbaycanda və xaricdə dərc edilmiş aşağıdakı məqalələrdə və iştirak etdiyi beynəlxalq konfranslarda öz əksini tapmışdır:

1. Dilin ümumişlək leksikası ilə coğrafiya terminlərinin qarşılıqlı əlaqəsi // – Naxçıvan: Naxçıvan Universitetinin Elmi əsərləri, – 2018. №4, – s.132-138.
2. Azərbaycan dilinin leksik sistemində coğrafiya terminlərinin yeri // Bakı Slavyan Universiteti, Azərbaycanşünaslığın aktual problemləri IX Beynəlxalq elmi konfransın materialları, – Bakı: – 3-4 may, – 2018, – s. 529-531.
3. Coğrafiya terminlərdə terminləşmə, determinləşmə, transterminləşmə proseslərinə bir baxış // – Bakı: Bakı Slavyan Universitetinin Elmi əsərləri, – 2019. №1, – s.173-177.
4. Müasir Azərbaycan dilində coğrafiya terminlərinin semantik üsulla yaranması // – Bakı: Dil və ədəbiyyat, – 2019. № 4 (112), – s. 8-10.
5. Müasir Azərbaycan dilində coğrafiya terminlərinin morfoloji üsulla yaranması // Bakı Slavyan Universiteti, "Dil siyasəti və müasir dövr" mövzusunda Beynəlxalq elmi konfransın materialları, – Bakı: – 12-13 dekabr, – 2019, – s. 193-197.

6. Müasir Azərbaycan dilində alınma coğrafi terminlər // AMEA Nəsimi adına Dilçilik İnstitutu Türk dilləri şöbəsi, tanınmış türkoloq alim Məhəbbət Mirzəliyevanın 70 illik yubileyinə həsr olunmuş "Azərbaycan Dilçiliyinin aktual problemləri" mövzusunda Respublika Elmi konfransının materialları, – Bakı: – 28 oktyabr, – 2019, – s. 204-206.

7. Dildə terminyaratma üsulları və sintaktik yolla yaranan coğrafiya terminləri // – Bakı: Terminologiya məsələləri, – 2020. №1, – s.170-180.

8. История эволюции географических терминов азербайджанского языкам // Труды XXVIII международного научно-практического конференция, наука и образование: отечественный и зарубежный опыт, – Белгород: – 16 марта, – 2020, – с.308-312.

9. Гидрографические термины в современном азербайджанском языке // – Майкоп: Вестник АГУ, – 2021. №1, – s.110-115.

10. Toponim səciyyəli coğrafiya terminləri // AMEA Naxçıvan bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. Axtarışlar, – Naxçıvan: – 2023. №2 (45), – s.69-73.

11. Azərbaycan dilində coğrafiya terminləri yazılı mənbələrdə / Özbəkistan Respublikası, Nəvai Dövlət Pedaqogika İnstitutu "Qloballaşma dövründə türk dillərinin inteqrasiyası" mövzusunda Beynəlxalq Konfrans. –2024. May, s.89-95

12. Azərbaycan dilində iqlim və atmosferlə bağlı coğrafiya terminlərinə dair / Ümummulli liderimiz Heydər Əliyevin 102 illik yubileyinə həsr olunmuş Gənc dilçi doktorant və dissertantların Sələflər və Xələflər Respublika konfransı, – s.89-92https://azerbaycandili.az/Literatures/Download/25108/KONFRANS%20TOPLUSU%20(SON%20I%CC%87S%CC%A7LENEN%2017.09.2025)%2012%20AVQUST%202025.pdf

13. Türk dillərində biocoğrafiya ilə bağlı coğrafiya terminləri // – Tashkent: O'zbek tili folklori va shevalari tadqiqotlari: amaliyot, metodologiya, yangicha yondashuv mövzusunda beynəlxalq elmi-nəzəri konfransın materialları, – 2025, – s.138-140.

Dissertasiyanın müdafiəsi 8 dekabr 2026-cı il tarixində saat 13:00-da Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.06 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, AZ 1143, H.Cavid prospekti 115, V mərtəbə.

Dissertasiya ilə AMEA Nəsimi adına Dilçilik İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 29 Oktyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.06.2026

Kağızın formatı: 60x84 1/16

Həcm: 42 774 işarə

Tiraj: 100